BİR KRIM DASTANI

HİLAL GÖRÜNƏNDƏ

Sevinc Çokum

Tərcüməçi:
Zeynəb Əli Yaşa (Əliqızı)

BİR KRIM DASTANI

HİLAL GÖRÜNÜNCE

Sevinç Çokum

“Hilal görünəndə” romanı oxucunu Krımın zəngin tarix və mədəniyyət dünyasına aparan təsirli bir bədii əsərdir. Əsərdə tatar xalqının həyatı, adət-ənənələri və Osmanlı ilə olan tarixi əlaqələri fonunda insan taleləri incəliklə təsvir olunur. Hadisələr 1853–1856-cı illər Krım müharibəsi ərəfəsində və ondan sonrakı dövrdə cərəyan edir. Bu dövr bir tatar ailəsinin gözündən verilir. Müəllif yalnız tarixi hadisələri deyil, həm də doğma torpaq, yaddaş və kimlik anlayışlarını dərin emosional çalarlarla təqdim edir. Təsvirlərin rəngarəngliyi və epik üslub əsərə xüsusi bədii güc qatır. “Hilal görünəndə” tarix və ədəbiyyatın qovuşduğu, oxucunu düşündürən və duyğulandıran bir romandır.

Qalmamışdır qeyri-qula minnətim,
İztirab içində qalıb tükəndim.
Hicran macərası sığmaz kitaba,
Qələm aciz oldu, yazdım, usandım.

Gözləvəli Aşıq Ömər

Arif Çələbi Fələkzədə sözünə belə başladı

Tanrı kəlməsindən uca kəlam varmı? Onun səltənətinə bənzər bir səltənətə kim sahib ola bilər? Onun yaratdığı nizamı kim qura bilər? Dənizlərin, göy və Yer üzünün, saysız-hesabsız aləmlərin sahibi yalnız Odur. Hər şeyi yoxdan var edib, varlığı və yoxluğu hiss etdirən də Odur. Bu ağız, bu dil gözəl danışmağımız və Onun adını çəkməyimiz üçün, gözlərimiz Onun qüdrətini görməkdən ötrü, qulaqlarımız həqiqəti eşitmək üçün bizə verilib. Bəs əl və ayaqların rolu nədir? Onlar dünya məkanını qorumaq, yaxşı işlərlə məşğul olmaq və xeyir əməllər üçün yaradılıb. Uca Allah bizi imanımız, bilik və müdrikliyimizlə heyvanlardan üstün yaratdı. Göy üzünü ulduzlarla bəzədiyi kimi, insanları da Yer üzünə səpələdi. Sonra Yer üzünü abadlaşdırmaqdan ötrü ona bir gülün açılmasından tutmuş bir quşun qanad çalmasına qədər ibrətamiz hadisələr göstərdi. Di gəl, bəşər övladı işıq əvəzinə qaranlığı seçdi, ağıl və biliyini faydalı işə sərf etmədi. Elə buna görə də Tanrı peyğəmbərlər göndərib, bizi Öz varlığından

xəbərdar etdi. Peyğəmbərlər peyğəmbəri – adı gözəl Məhəmmədlə (s.a.v) isə son və əbədi sözünü çatdırdı. O, dünyanın nizama düşməsi və insanların iman yolundan sapmamaları üçün göndərilmişdi. Beləliklə, dünya iman edənlərlə etməyənlər kimi iki hissəyə ayrıldı.

Yer üzündə cürbəcür millətlər və qövmlər var, onların dilləri də, rəngləri də, xasiyyətləri də müxtəlifdir. Amma hamısı Allah qarşısında insandır. Bəşər övladı onun yanında yalnız imanı, biliyi və müdrikliyi ilə bir-birindən seçilir. Taleyin sınağından çıxmış bu biçarə bəndənin mənsub olduğu millət isə uca bir millətdir və o, türk adlanır. Bu millətin əlində qələm də, qılınc da gözəldir. Kaşqarlı Mahmud (Allah ondan razı olsun) çəkdiyi dünya xəritəsinin mərkəzində türk millətinin hökmdarlarını yerləşdirmişdir. Mən onun Divanını oxumuşdum. Belə bir hədisdən bəhs edir:

> Mən Tanrının dövlət günəşini türk bürclərində ucaltdığını və göy dairələrini onların mülkləri üzərində döndərmiş olduğunu gördüm. Tanrı onlara türk adını verdi və onları Yer üzünün hökmdarı etdi. Dövrümüzün xanlarını onların arasından seçdi. Dünya xalqlarının idarəçiliyini onlara həvalə etdi. Onlarla birlikdə çalışanları və onların tərəfini tutanları şərəfləndirdi. Türklərin sayəsində onları bütün arzularına çatdırdı. Bu adamları pislərin və yaramazların şərindən qorudu. Ağlı olanın qazancı – onların atdığı oxlardan canlarını qurtarmaq üçün bu adamların tutduğu yolla getmələri oldu. Öz dərdlərini eşitdirmək və türklərin qəlbini fəth etməkdən ötrü onların dilində danışmaqdan başqa yol yoxdur. Allahın hikmətinə şübhə edilməz.

Bir vaxtlar Yer üzündə hökmranlıq edən türk millətinin, gün gəldi, bəxti gətirmədi. Tanrı insana verdiyi ömrü geri alır. Günəş – vaxtı çatanda yox olur. Gül – vaxtı çatanda çiçək açır, sonra solur. Adı gözəl Məhəmməd (s.a.v.) yuxarıdan enən əmrin ürək ağrıdan xəbəri gələndə vəzifəsini yerinə yetirmiş kimi ümmətindən ayrılaraq Allahına qovuşdu. Mənim millətim də vaxtı çatanda fəth etdiyi yerlərdən çəkildi. Eynən bolluq gətirən suların düzənliklərdən çəkildiyi kimi. Onun uca adı indi Anadolu torpağına həkk olunmuşdur. Gülləri orada açır, fidanları orada cücərir. Bu əzabkeş bəndənin duası budur ki, Allahın mərhəməti və sevgisi türk millətinin üzərindən əskik olmasın. Aşılmaz olanı aşmağa, keçilməz yolları keçməyə ona güc versin. Elm və müdriklik ocağı daim alovlansın. Türk milləti xeyirxahlığa və gözəlliyə doğru getsin. Birlik yolundan uzaqlaşmasın.

***

Söyləyəcəyim hekayə Krımdakı vəziyyət, krımlı Nizam baba və onun qohumları ilə bağlıdır. Mən Krım torpağını əvvəllər tanımırdım, yəni mənim təki kasıb birinin oraya getmək imkanı heç vaxt olmamışdı. Amma bu kitabı yazarkən xəyallar aləmimdə xeyli qayıq, iri yelkənli gəmi və buxar gəmisi icad edib, oraya tez-tez gedib-gəlirdim. Demə, bura bir cənnətmiş. Elə rusların "Günəş ölkəsi" dediyi kimiymiş. Bu cənnət bağına ilk gələnlər də hunlar olmuşlar. Hun türkləri isə nə dənizlərə, nə quruya sığan idi, qarşılarında heç bir qala, heç bir bənd tikilə bilməzdi. Lap tikilsəydi belə, atlarının

keçə bilməyəcəyi bir maneə yox idi. Hunlardan sonra bu ölkəyə xəzərlər, kumanlar, peçeneqlər və səlcuqlular da gəldilər. Şanlı Qızıl Orda Dövlətini isə Çingizlilər qurmuşdu, onun sərhədləri o dövrdə ad-sanı dünya səhnəsində sayılmayan Moskva Knyazlığına doğru bir xəncər kimi uzanırdı. Tatar cəngavərləri ruslara göz açmağa imkan vermirdi, onlar girdikləri dəlikdən başlarını çıxarar-çıxarmaz bu igidlər atlarını onların üstünə necə sürürdülərsə, ruslar qorxularından diz çökürdülər. Ona görə də rus knyazlarının Saray vilayətinə gəlib itaətlərini bildirmələri adət halını almışdı.

Krım xanlığı Qızıl Orda dövlətinin bir hissəsi idi və teymurilərin işğalı nəticəsində dövlət dörd yerə bölünəndən sonra yaranan xanlıqlardan biri oldu. Əvvəllər Krım xanlığının sərhədləri Dunaydan Urala qədər uzanırdı. Bu yerlərdə yunanlar, italyanlar, ermənilər və yəhudilər də yaşayırdılar, lakin torpaqların əsl sahibi türklər idi. Teymurilər dövründə isə Qəfə şəhərində məskunlaşmış genuyalılar gəmilərlə mal daşıyırdılar. Krım-tatar türkləri dəniz ticarətinə maraq göstərməyib, heyvandarlıq və əkinçiliklə ömür sürürdülər. Fateh Sultan Mehmet xan genuyalıları Krım limanlarından qovmaq fikrindəydi. O, uzaqgörən bir sultan olduğuna görə, dənizçiliyi inkişaf etdirib donanmasını dənizə yerləşdirdikdən sonra adı cümə xütbəsində Sultanülbərreyn kimi oxundu və adına Hakanül-bəhreyn titulu da əlavə edildi. Tanrının istəyi ilə Fateh Sultan Mehmet bütün kafirləri məğlub etdi. O dövrdə Krım xanlığının başçısı olan Mengli Gəray ilə qardaşı arasında taxt-tac

üstündə fikir ayrılığı yaranmışdı. Mengli Gəray çətinliyə düşəndə Fateh Gədik Əhməd paşanı və gəmilərini Qəfəyə göndərdi. Qəfə qalalarının hamısı zəbt edildi. Genuyalıların adı Qara Dənizdən silindi. Bundan sonra Osmanlı İmperiyası ilə Krım xanlığı bir-birinə qovuşdu. Lakin Moskva bir tikan kimi araya girib, onları bir-birindən ayırdı. Nəhayət, imperatriça Yekaterinanın fərmanı ilə Krım xəyanətlə ələ keçirildi. Həmin gündən etibarən üzləri gülməyən Krım türkləri vətənlərindən köç etməyə başladılar. İllərlə davam edən bu köç hekayəti qəlb sızladan bir acıdır. Krım müharibəsindən sonra vətənlərini tərk edənlərin sayı çoxdur. Orada qalanlar isə bir müddət sonra bağ-bağçaları əllərindən alınaraq, Rusiyanın daxili ərazilərinə sürgün edildilər. Rusiyanın imkanlı şəxsləri o gözəl sahilləri özləri üçün yay iqamətgahlarına çevirdilər. Krım müharibəsi zamanı Krım türklərinin başına gələnlərdən bəhs edən bu kitab bir tarix kitabı deyil, fransızlar buna "roman" deyirlər. Burada bəzi sözlər Krım ləhcəsində yazılmış olsa da, bu roman İstanbul türkcəsində qələmə alınmışdır. Məlum olduğu kimi, əvvəllər Krımda danışılan türk dili qıpçaq ləhcəsinə aiddir. Sonralar Osmanlı türkcəsi ilə də qaynayıb-qarışmışdır. "Kodeks Komanikus" adlı bir lüğət bizə qıpçaq türk ləhcəsi haqqında məlumat verir. Bunu da əlavə edim ki, Krım ləhcəsində bir başqa üslub və zəriflik var. Yəni:

Kabrimde melekler sorgu sorasa
Azrail tilimni bin kere torasa